

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 149 (23.311)

*10 avqust 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvanda yeni Günəş Elektrik Stansiyası tikiləcək

Muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadə əsas yer tutur. Bu sahədə görülən işlərin davamı olaraq Kəngərli rayonunun Qabıllı kəndində yeni Günəş Elektrik Stansiyası tikiləcəkdir.

Avqustun 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Günəş Elektrik Stansiyasının inşası ilə bağlı müqavilə imzalanmışdır.



Naxçıvan Muxtar Respublikası baş nazirinin müavini-maliyyə naziri Səbuhi Məmmədov, Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev və Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov aidiyyəti üzrə məlumat vermişlər. Qeyd olunmuşdur ki, ümumi gücü 3 meqavat olacaq Günəş Elektrik Stansiyası üçün Kəngərli rayonunun Qabıllı kəndində kənd təsərrüfatına yararlı olmayan ərazi seçilmişdir. Stansiya İsveçrənin “Pure Energy Development” SARL şirkəti tərəfindən qurulacaq və şirkətin istehsalı olan ən müasir günəş panellərindən istifadə olunacaqdır.

İsveçrənin “Pure Energy Development” SARL Şirkətinin icraçı direktoru Mişel Kalerami yenidən Naxçıvanda olmaqdan, eləcə də Günəş Elektrik Stansiyasının qurulmasında muxtar respublika ilə əməkdaşlıqdan böyük məmnunluq duyduqlarını bildirmişdir. Tikinti işlərinin yüksək keyfiyyətlə aparılacağını və ən son texnologiyalardan istifadə olunacağını diqqətə çatdıran Mişel Kalerami təmsil etdiyi şirkətin kollektivi adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov elektrik enerjisinə olan tələbatın ilbəil artdığını bildirərək demişdir ki, muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunmasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə xüsusi diqqət yetirilir, yeni Günəş və su elektrik stansiyaları inşa olunur. Son illər Babək rayonunda 22 meqavat, Kəngərli rayonunda 2 meqavat gücündə Günəş Elektrik stansiyaları tikilmişdir. Hazırda Araz çayı üzərində su elektrik stansiyasının inşası davam etdirilir. Bütün bunlar enerji təminatını yaxşılaşdırmaqla yanaşı, həm də Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin gəlirlərini artırır və bu sahənin daha da müasirləşdirilməsinə imkan verir. 3 meqavatlıq Günəş Elektrik Stansiyası da Dövlət Energetika Xidmətinin gəlirləri hesabına inşa olunacaqdır. Bütün bunlar muxtar respublikanın inkişafının göstəricisidir.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti ilə İsveçrənin “Pure Energy Development” SARL Şirkəti arasında Kəngərli rayonunun Qabıllı kəndi ərazisində 3 meqavatlıq yeni Günəş Elektrik Stansiyasının qurulması barədə müqavilə imzalanmış, xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda sosial qayğıya ehtiyacı olanlara fərdi yaşayış evləri, mənzillər və avtomobillər təqdim olunub





Avqustun 9-da – müqəddəs Qurban bayramı ərəfəsində Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı sağlamlıq imkanları məhdudlaşmış 2 nəfərə, hərbi xidməti vəzifəsinin icrası zamanı sağlamlığını itirmiş 2 şəxsə və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə fərdi yaşayış evi və mənzillər təqdim olunmuş, eyni zamanda sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına, hərbi xidməti vəzifəsinin icrası zamanı sağlamlığını itirmiş şəxsə və Çernobıl qəzasında sağlamlığını itirmiş 1 nəfərə “NAZ-Lifan-320” markalı minik avtomobili verilmişdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək demişdir ki, muxtar respublikada əhalinin sosial müdafiəsi sahəsində həyata keçirilən tədbirlər xüsusi qayğıya ehtiyacı olan şəxsləri də əhatə edir. Sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçıları və şəhid ailələri mənzillər və minik avtomobilləri ilə təmin olunur, tibbi bərpası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. 2019-cu ilin ötən dövründə 481 sağlamlıq imkanları məhdud şəxsin bərpa mərkəzlərində müalicələri təşkil edilmiş, 278 şəxsə sanatoriya və müalicə pansionatlarına göndəriş verilmiş, 8 nəfərə minik avtomobili, 12 ailəyə fərdi yaşayış evi və mənzil təqdim olunmuşdur. Nicat Babayev sağlamlıq imkanları məhdud şəxslərə göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov fərdi yaşayış



evi, mənzil və avtomobillə təmin olunanları təbrik edərək demişdir: Azərbaycanda vətən qarşısında xidməti borclarını layiqincə yerinə yetirmiş şəxslər hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşlar. Bu gün fərdi yaşayış evi, mənzil və avtomobil təqdim olunanlar da xidməti vəzifələrini layiqincə yerinə yetirmiş, vətənpərvərlik nümunəsi göstərmiş şəxslərdir. Bunlar o yerdə baş verir ki, həmin ölkədə dövlət-xalq birliyi vardır. Dövlət xalqına arxalanır, xalq isə dövlətinə inanır. Belə olan halda isə hər bir şəxs dövləti qarşısında öz xidməti borcunu layiqincə yerinə yetirməyə çalışır.

“Bu gün fərdi yaşayış evi, mənzil və avtomobillə təmin olunanlara dövlətin göstərdiyi qayğı cəmiyyət üçün nümunədir. Cəmiyyətdə bu insanlara xüsusi hörmət və diqqət vardır. Müqəddəs Qurban bayramı ərəfəsində dövlət qayğısı ilə əhatə olunmaq isə hər bir ailəyə ikiqat bayram sevinci yaşadır”, – deyən Ali Məclisin Sədri vətən qarşısında borclarını layiqincə yerinə yetirdiklərinə görə fərdi yaşayış evi, mənzil və avtomobillə təmin olunanlara təşəkkür etmişdir.

Sonra Ali Məclisin Sədri fərdi yaşayış evi və mənzillərin orderlərini, eləcə də minik avtomobillərinin açarlarını təqdim etmişdir.

Mənzil və avtomobillə təmin olunanlardan Qurban Yolçuyev, Nuhin Əhmədov, Bilal Qurbanov, Vahid Hüseynov və Tağı Tağıyev qeyd etmişlər ki, bu gün də Ali Baş Komandanın əmrinə hazırıq. Qarşımızda duran vəzifə övladlarımızı da Vətənə layiqli əsgər kimi yetişdirməkdir.

Fərdi yaşayış evi ilə təmin olunan Səfər Məmmədovun övladı Murad Məmmədov minnətdarlıq edərək demişdir: Muxtar respublikada insanların həyat səviyyəsi günbəgün yaxşılaşır. Bunu gündəlik həyatımızda daha çox hiss edirik. Sağlamlıq imkanları məhdud olan şəxslər mənzillə və minik avtomobilləri ilə təmin olunur, müalicələrinə köməklik göstərilir. Yaradılan şəraitin nəticəsidir ki, rahat və firavan yaşayırıq. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 50 illiyi və Qurban bayramı ərəfəsində ailəmizin mənzillə təmin olunması bizi çox sevindirdi. Murad Məmmədov ulu öndərə həsr etdiyi şeirini oxumuşdur:

Gəlişinlə qurtulubdur bu vətən,
Sən oldun bu xalqa ümid və güvən.
Sən oldun dar gündə köməyə yetən,
Ulu bir sərkərdə, ulu bir öndər.

*Ardı 2-ci səhifədə*





Ucaltdı hər yerdə bayrağımızı,
Yazdı tarixlərə ad-sanımızı.
Tanıtdı dünyada varlığımızı,
Ulu bir sərkərdə, ulu bir öndər.

Hara baxırsansa nişanələri,
Özündən sonrakı abidələri.
Bizləri tərk etmir xatirələri
Ulu bir sərkərdə, ulu bir öndər.

Heydər adı dastanlara çevrildi,
Onun qüdrətini yer üzü bildi.
Allah onu yurdumuza yetirdi,
Ulu bir sərkərdə, ulu bir öndər.

Fərdi yaşayış evləri Şərur rayonunun Maxta, Culfa rayonunun Yaycı və Şahbuz rayonunun Badamlı kəndlərində tikilmişdir. Mənzillərdən biri Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki yeni yaşayış binasında, digəri isə Naxçıvan şəhərində yerləşir. Fərdi yaşayış evləri və mənzillər tam təmir olunmuş, müasir kommunal-məişət şəraiti yaradılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Hərbi hissə və birləşmələrə bostan-tərəvəz məhsulları təqdim edilib

*Avqustun 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından 10 tona yaxın bostan-tərəvəz məhsulları Əlahiddə Ümumqoşun Orduya, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayına və "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasına təqdim olunub.*



Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək deyib ki, muxtar respublikada ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülmüş, ordu, birləşmə və hissələr müasir xidmət şəraiti ilə təmin olunmuşdur. Hərbi hissələrdə əsgəri-məişət-yaşayış kompleksləri tikilmiş, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılmış, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılmışdır. Ordu quruculuğu sahəsində görülən tədbirlər içərisində şəxsi heyətin sağlam qidalanması xüsusi yer tutur. Hərbi hissələrdə ərzaq təminatı yüksək səviyyədə həyata keçirilir. Bununla yanaşı, muxtar respublikada xalq-ordu birliyinin daha bir ifadəsi kimi əhali və ayrı-ayrı təşkilatlar tərəfindən yetişdirilən məhsullar hərbi hissələrə təhvil verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından 10 tona yaxın bostan-tərəvəz məhsullarının hərbi hissə və birləşmələrə təqdim olunması da bu tədbirlərin davamıdır.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev və Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri, general-leytenant Şamı Abdullayev çıxış etmişlər. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada ordu quruculuğu sahəsində kompleks tədbirlər görülür. Hərbi hissələrin maddi-texniki təminatı gücləndirilir, döyüş hazırlığı artırılır, şəxsi heyətin yaşayış şəraiti yaxşılaşdırılır. Aparılan genişmiqyaslı tikinti-quruculuq işləri hərbi hissələri də əhatə etmişdir. Hərbi hissələrə sovqatların verilməsi isə şəxsi heyət tərəfindən yüksək qarşılanır. Kərəm Mustafayev və Şamı Abdullayev göstərilən qayğıya görə şəxsi heyət adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişlər.



Sonra bostan-tərəvəz məhsulları hərbi hissələrə təhvil verilmişdir.

**"Şərq qapısı"**

## Sığorta fəaliyyətinin təşkili müzakirə olunub

*Dünən Şahbuz Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələr barədə tədbir keçirilib.*



Tədbiri rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev açaraq sığorta fəaliyyətinin əhəmiyyətindən danışıb.

Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək qeyd edib ki, sığorta müxtəlif gözlənilməz hadisələr nəticəsində dəymiş maddi zərərlərin əvəzinin ödənilməsinə xidmət edir. O bildirib ki, vətəndaşlar vaxtında öz daşınmaz əmlakını, avtonəqliyyat vasitələrini, mülki məsuliyyətini icbari qaydada sığortalamaqla baş verən gözlənilməz hadisələrdən dəymiş maddi zərərlərin ödənilməsinə təminat alırlar.

Qeyd olunub ki, ötən müddətdə Şahbuz rayonunda da bu istiqamətdə müəyyən işlər görülüb. Belə ki, rayon üzrə cari ilin ilk 7 ayı ərzində, ümumilikdə, 1631 ədəd sığorta müqaviləsi bağlanılıb. Onlardan 417-si avtonəqliyyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə, 713-ü daşınmaz əmlakın icbari sığortası, 501-i isə könüllü sığortalar üzrə bağlanılıb.

Diqqətə çatdırılıb ki, görülmüş işlərlə bərabər, bəzi icbari və könüllü sığorta növləri üzrə işlər günün tələbləri səviyyəsində aparılmayıb. Belə ki, rayonda hələ də bəzi icbari sığorta növləri üzrə sığorta olunmayan fiziki şəxslər vardır. Vurğulanıb ki, Dövlət Baş Sığorta Agentliyi aidiyyəti qurumlarla birlikdə qanunvericiliyə uyğun olaraq icbari sığortaların həyata keçirilməsini təmin etməlidirlər.

Tədbirdə könüllü sığortaların, o cümlədən kənd təsərrüfatı sığortasının xüsusi əhəmiyyəti olduğu qeyd olunub, çıxışlar dinlənilib.

**Əli CABBAROV**

## Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin yeni saytı fəaliyyətə başlayıb

*İqtisadiyyat Nazirliyinin, struktur bölmələrinin və tabeliyindəki qurumların fəaliyyətləri, müxtəlif sahələr üzrə elanları, həmçinin maarifləndirici məlumatlar mətbuatda dərc olunub, eyni zamanda internet səhifəsində yerləşdirilib.*

Nazirliyin əvvəlki internet saytı müasir tələblərə cavab vermədiyindən yeni sayt *(www.in.nakhchivan.az)* hazırlanıb. Yeni dizayn, quruluş və məzmun baxımından zəruri tələblərə cavab verən internet saytı nazirliyin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin, bu sahədə olan yeniliklərin, həyata keçirilən tədbirlərin daha dolğun və operativ şəkildə ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir. Sayt istifadəçiləri iqtisadiyyat sahəsinin müxtəlif istiqamətləri üzrə tətbiq edilən yenilikləri və normativ-hüquqi bazanı vahid mənbədən əldə edəcəklər. Saytın strukturu təkmilləşdirilib, yeni funksional bölmələr əlavə edilib və yeni dizayn verilib.

Yeni internet saytında elektron xidmətlərdən istifadə də mümkündür. Saytda icazələrin elektron informasiya portalına *(icazeler.nax.az)* birbaşa keçid yerləşdirilib və vahid idarəetmə sistemi yaradılıb.

7 bölmə və 19 altbölmədən ibarət yenilənmiş saytda istifadəçinin rahatlığı üçün ən çox müraciət olunan bölmələr "Ana səhifə"də cəmlənib, muxtar respublikanın iqtisadiyyat xəbərləri, nazirlik tərəfindən keçirilən tədbirlər, operativ informasiyalar, həmçinin muxtar respublika iqtisadiyyatının makroiqtisadi göstəriciləri öz əksini tapıb. Bununla yanaşı, sahibkarlarla iş sahəsində "sahibkarlığa dəstək" və "sahibkarların nəzərinə" altbölmələri vasitəsilə operativ olaraq sahibkarların məlumatlandırılması da nəzərdə tutulub. Saytda vətəndaşların qəbul günlərinin qrafiki, elektron müraciət qaydaları, qaynar xətt, valyuta məzənnələri, nazirliyin e-mail ünvanı və digər əlaqə vasitələri barədə məlumatlar da yerləşdirilib.

İqtisadiyyat Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun olaraq keçirilən tədbir və konfranslar, Azərbaycanda və xarici ölkələrdə təşkil edilən biznes-forum, işgüzar görüş və sərgilər, bir sıra ölkələrlə aparılmış ticarət əlaqələri, iqtisadiyyatın müxtəlif sahələri üzrə qəbul edilmiş normativ-hüquqi aktların, müxtəlif ölkələrin nümayəndə heyətlərinin muxtar respublikaya səfərləri barədə məlumatlar sayt vasitəsilə mütəmadi olaraq ictimaiyyətə çatdırılacaq, həmçinin vətəndaşların nazirliklə əlaqəli sualları operativ cavablandırılacaqdır.




**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

## "Əmlak kalkulyatoru" istifadəyə verilib

Muxtar respublikamızda daşınmaz əmlakın qeydiyyatı sahəsində yeniliklərin tətbiqi daim diqqətdə saxlanılır. Həyata keçirilən tədbirlərin davamı olaraq qeydiyyatla bağlı daha keyfiyyətli xidmətlərin göstərilməsi və vətəndaşların rahatlığının təmin edilməsi məqsədilə Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən "əmlak kalkulyatoru" istifadəyə verilib. Vətəndaşlara və hüquqi şəxslərə daşınmaz əmlakla bağlı əməliyyatların aparılması zamanı tələb olunan dövlət rüsumu və xidmət haqqını əvvəlcədən onlayn qaydada hesablamaq imkanı yaradılıb.

"Əmlak kalkulyatoru" komitənin internet saytı *(www.emlak.nakhchivan.az)* vasitəsilə istifadəçilərə təqdim olunur. Müvafiq məlumatların daxil edilməsi ilə daşınmaz əmlak obyektlərinin qeydiyyatı və çıxarışın alınması, texniki sənədlərin hazırlanması, dövlət reyestrindən arayışların verilməsi, əmlakın qabaqcadan qeydiyyatı, yüklülükdən azadetmə, məhv olmuş daşınmaz əmlakın və onun üzərində hüquqların dövlət qeydiyyatının ləğvi, daşınmaz əmlakın sxematik bölgüsünün aparılması və digər xidmətlərə görə tələb olunan ödənişlər elektron qaydada hesablanır və yekun rəqəm təqdim olunur.

Qeyd edək ki, kalkulyatorun sadalanan bütün əməliyyatların vətəndaşın istəyindən asılı olaraq tezləşmə qaydası ilə aparılması üçün hesablama imkanları da mövcuddur.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## Rzayev Qürbət İsmayıl oğlu



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Rzayev Qürbət İsmayıl oğlu 2019-cu il avqustun 9-da vəfat etmişdir.

Qürbət Rzayev 1941-ci ildə Qazaxıstan Respublikasının Taldı-Kurqan vilayətinin Kirovski rayonunun Kirov kəndində anadan olmuşdur. 1949-1960-cı illərdə Qazaxıstanın Kirov rayonunda orta məktəbdə təhsil almış, 1960-1961-ci illərdə Aza kənd məktəbində orta təhsilini başa vurmuşdur. 1962-ci ildə Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun qiyabi şöbəsinə qəbul olunmuş, həmin ildən Ordubad rayonunun Sabirkənd orta məktəbində müəllimlik fəaliyyətinə başlamışdır. O, 1967-ci ildə Sabirkənd orta məktəbinin tədris işləri üzrə direktor müavini, 1968-1972-ci illərdə həmin məktəbin direktoru, 1972-1996-cı illərdə Sabirkənd orta məktəbində rus dili müəllimi, 1996-1999-cu illərdə Ordubad Rayon Təhsil Şöbəsinin müdiri vəzifələrində işləmişdir.

1994-cü ildən Yeni Azərbaycan Partiyasının üzvü olan Qürbət Rzayev 1999-cu ildən ömrünün sonuna qədər Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri vəzifəsində işləmiş, ikinci, üçüncü, dördüncü və beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilmişdir. Əməyi dövlətimiz tərəfindən qiymətləndirilmiş, “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri fərmanına layiq görülmüşdür.

Qürbət Rzayevin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi**
**Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı**

*“Xan Sarayı” Dövlət-Tarix Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində general-mayor Cəmşid Naxçıvanskinin anadan olmasının 124-cü ildönümünə həsr edilmiş tədbir keçirilib.*

## Görkəmli sərkərdənin 124-cü ildönümü ilə bağlı tədbir keçirilib



Tədbiri giriş sözü ilə muzey kompleksinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nəzakət Əsədova milli hərb tariximizin görkəmli nümayəndələrinin həyat və fəaliyyətinin tədqiqi və təbliğinin əhəmiyyətindən danışıb.

Sonra Cəmşid Naxçıvanskinin ev-muzeyinin direktoru Abasət Nuriyevin, həmin muzeyin baş fond mühafizi-elmi işçisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Gülnaz Hüseynovanın, “Xan Sarayı” Dövlət-Tarix Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin baş fond mühafizi-elmi işçisi Zülfiyyə Əliyevanın çıxışları dinlənilib.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

**Pərviz HACILI**

## 3191 nömrəli order...
## Və ya generallar nəslinin görkəmli nümayəndəsi

*Yurdumuzun şanlı tarixinə adını qızıl hərflərlə yazmış elə nəsillər, elə sərkərdələr olub ki, onlar öz mərdliyi, igidliyi ilə Vətənimizin azadlığına, müstəqilliyinə mühüm töhfələr veriblər. Azərbaycanın hərb tarixində görkəmli rol oynamış belə sərkərdələrdən biri də milli hərb tariximizə 6 general bəxş etmiş Kəngərlilər nəslinin sonuncu generalı Cəmşid xan Naxçıvanskidir.*

O, 10 avqust 1895-ci ildə Naxçıvan şəhərində ehtiyatda olan zabit Cəfərqulu xan Naxçıvanskinin ailəsində dünyaya göz açıb. 12 yaşı olarkən hərbi təhsil alması üçün atası Cəmşidi Tiflis Kadet Məktəbinə gətirir. Cəmşid burada 7 il ilkin hərbi təhsil aldıqdan sonra 1914-cü ildə Qərbi Ukraynanın Yelizavetqrad şəhərindəki Qvardiya Məktəbinə daxil olur. Amma I Dünya müharibəsinin başlaması ilə ölkədə vəziyyət dəyişir. Cəmşidə bu məktəbdə oxumaq cəmi 4 ay qismət olur. 1914-cü ilin dekabrında Cəmşid Naxçıvanskiyə praporşik hərbi rütbəsi verilərək çar Rusiyasının müsəlmanlardan təşkil etdiyi Qafqaz Süvari Diviziyasına xidmətə göndərilir. 1915-ci ilin qışında Cəmşid xan süvari alayı ilə birlikdə I Dünya müharibəsinin cənub-qərb cəbhəsində gedən qızğın döyüşlərə qatılır. Bu müharibə zamanı Brusilov cəbhəsinin yarılması, Kosovo, Novoselka kəndləri və Lutks şəhəri uğrunda, İnquş Süvari Alayının mühasirədən azad edilməsi əməliyyatında və onlarla digər döyüşlərdə Cəmşid Naxçıvanski qəhrəmanlıqla vuruşur. O, 4 il davam edən bu amansız döyüşlərdə 3 dəfə ağır yaralanır, hərbi hospitallarda müalicə alaraq təkrar döyüşlərə qatılır. Cəmşid Naxçıvanskinin döyüş meydanlarında göstərdiyi cəsarət və igidlik imperiya rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir, rütbəsi ştabs-rotmistrə qədər yüksəldilir, qiymətli hədiyyələrlə mükafatlandırılır.

Cəmşid Naxçıvanskinin xidmət etdiyi Qafqaz Süvari Diviziyası geriyə – Qafqaza qayıdır. Onun da manqa komandiri olduğu Tatar *(azərbaycanlı)* Süvari Alayı Gəncə ətrafında yerləşdirilir. Cəmşid Naxçıvanski Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ilin yazından təşkil etdiyi milli ordu quruculuğunda fəal iştirak edir. Həmin ilin sentyabrında onun alayı Qafqaz İslam Ordusu ilə birlikdə Gəncədən Bakıya yürüş edərək Bakını daşnak-bolşevik hərbi birləşmələrindən azad edir. Bakı Kommunasının əsgərləri qovulandan sonra şəhərə ingilislər daxil olurlar. Növbəti döyüşü Cəmşid xan Sentrokaspi qüvvələri ilə aparmalı olur. Şəhər azad olunaraq paytaxt Gəncədən Bakıya köçürülür. Cəmşid Naxçıvanski bu tarixi döyüşlərdə Kəngərlilərin döyüş ənənələrini məharətlə tətbiq edərək 2 şotland rotasını büsbütün əsir götürür. Cəmşid Naxçıvanskinin hərbi istedadını görən Səməd bəy Mehmandarov hələ çox gənc olmasına baxmayaraq, onu Azərbaycan Xalq Cümhuriyyətinin I Süvari Alayına komandir köməkçisi təyin edir. İngilislər də Bakıdan çıxarılandan sonra paytaxta növbəti təhlükəni şimaldan Ağqvardiyaçılar gətirirlər. Denikinçilərin qarşısını ləyaqətlə ala biləcəyinə əmin olan komandanlıq Cəmşid xanı Dağıstan ilə sərhəddə mühafizə rəisi təyin edir. Cəmşid xan hərbi xidmətini burada da uğurla davam etdirir.

1918-1920-ci illərdə Cəmşid Nax-



çıvanski kimi milli hərbi kadrlara böyük tələbat var idi. Buna görə də Səməd bəy Mehmandarov ona podpolkovnik rütbəsi verərək 24 mart 1920-ci il tarixli 163 nömrəli əmrlə II Qarabağ Süvari Polkunun komandiri təyin edir. Bu, o vaxt idi ki, bolşeviklərin təhriki ilə ermənilər Qarabağda üsyan qaldıraraq Azərbaycan torpaqlarını işğal etmişdi. Cəmşid xan təcili olaraq Qarabağa yollanır. Ermənilər daha çevik tərpənərək onun yolunu kəsmək üçün Əsgəran qalasını tutub Xankəndinə gedən yolu bağlayırlar. Daşnaklar yaxşı bilirdilər ki, Cəmşid xan Xankəndinə yetişib yenicə komandir təyin edildiyi II Qarabağ Süvari Polkunun başına keçsə, hadisələr onların əleyhinə sürətlə dəyişəcək. Cəmşid Naxçıvanski öz hərbi şücaəti və sərkərdəlik məharəti sayəsində qısa vaxt içərisində Ağdamı, Əsgəran qalasını, Xankəndini və Şuşanı erməni quldurlarından təmizləyərək Qarabağı 1919-1920-ci illər işğalından azad edir. Bu şərəfli tarixi döyüşlərdə o zaman polkovnik rütbəsində olan Həbib bəy Səlimov Cəmşidin kiçik qardaşı, Şəki polkunun komandiri III Ehsan xan və onlarla naxçıvanlı igid misilsiz qəhrəmanlıqlar göstəriblər. AXC Milli Ordusunun komandanı Səməd bəy Mehmandarov Xankəndinə gedərək Qarabağda döyüşən əsgər və zabitlər önündə təntənəli çıxış edib bu tarixi qələbə münasibətilə onları mükafatlandırıb.

Azərbaycanda Sovet hökuməti qurulanda Cəmşid Naxçıvanski Nəriman Nərimanovun dəvəti ilə Qarabağdan Bakıya qayıdır. Sovet Azərbaycanının Hərbi-Dəniz Xalq Komissarı Əliheydər Qarayevin əmri ilə Cəmşid Naxçıvanski əvvəlcə Azərbaycan Sovet Hərbi Məktəbinə təsərrüfat rəisi təyin edilir. Sonra Naxçıvanski Azərbaycan Birləşmiş Hərbi Məktəbin rəisinin birinci köməkçisi təyin edilir. Cəmşid xan əsas vaxtının böyük hissəsini milli müdavimlərlə keçirib, onların peşəkar hərbçi kimi yetişmələri üçün var gücü ilə çalışırdı.

Cəmşid Naxçıvanskinin təşəbbüskarlığı və təşkilatçılığı Zaqafqaziya Hərbi Dairəsi tərəfindən yüksək qiymətləndirilir. Onu 1921-ci il sentyabrın 10-da Azərbaycan Atıcı Briqadasına komandir təyin edirlər və briqadanın bazası əsasında Atıcı (dağatıcı) Diviziya yaratmağı tapşırırlar. Naxçıvanski taktiki və texniki göstəricilərinə, həmçinin sıra və döyüş hazırlığına görə Zaqafqaziyada öndə olan Azərbaycanın ilk Milli Atıcı Diviziyasını yaradır. Bu işinə görə Zaqafqaziya Hərbi Dairəsi ona təşəkkür bildirərək gümüş dəstəkli qılınc hədiyyə edir. Akademik təhsili olmadığı üçün Silahlı Qüvvələrin nizamnamə və əsasnaməsinə görə, Naxçıvanskinin diviziya komandiri olması qeyri-qanuni olsa da, SSRİ-nin hərbi elitası heç tərəddüd etmədən bu vəzifəni məhz onun özünə tapşırır.

Yeni yaradılmış diviziyanın döyüş hazırlığını yüksək səviyyəyə çatdırmaq üçün Naxçıvanski yorulmaq bilmədən gecə-gündüz çalışır. Yalnız 1923-cü ildə Cəmşid Naxçıvanski akademik təhsil üçün vaxt ayıra bilir. Onu Moskva Hərbi Akademiyasının Ali Komanda kursuna göndərirlər. Kursu müvəffəqiyyətlə bitirərək doğma diviziyasına geri qayıdır. Sonrakı illərdə (1927-1928) daha iki dəfə Sərhəd İşinin Təşkili və İdarə Olunması və Hava Hücumundan Müdafiə kurslarına göndərilir. Cəmşid Naxçıvanski 10 sentyabr 1921-ci ildən 1 iyun 1931-ci ilədək Azərbaycan milli diviziyasına komandirlik edir. O, bu on il ərzində Azərbaycan Silahlı Qüvvələri üçün əvəzsiz işlər görür. Cəmşid xanın diviziyası Azərbaycanın sərhədlərini havadan və qurudan qoruyaraq milli hərb sənətimizə yeni bir nəfəs gətirir. O, Cənubi Qafqazda ilk dəfə olaraq hava hücumundan kimyəvi vasitələrlə müdafiəni təşkil edir və bunu praktik olaraq diviziyanın təlimlərində komandanlığa nümayiş etdirir. Diviziya bu 10 il müddətində Zaqafqaziyada keçirilən bütün növ hərbi təlimlərin hər birində müxtəlif kateqoriyalar üzrə ilk yerlərdən birini qazanır. Sıra və döyüş hazırlığı ilə yanaşı, diviziyanın siyasi-ideoloji hazırlığının da möhkəmləndirilməsi üçün Naxçıvanski diviziyanın “Hərbi bilik” jurnalını təsis edir və onun redaktoru kimi ən aktual mövzularla çıxış edir. Yeri gəlmişkən, 100 il bundan əvvəl Cəmşid xanın qaldırdığı hərbi məsələlər bu günün özündə belə, öz aktuallığını qoruyub saxlamaqdadır. Bütün bunların məntiqi nəticəsi idi ki, Naxçıvanskinin yaratdığı həmin diviziya Böyük Vətən müharibəsi illərində Xəzər dənizindən Baltik dənizinədək şərəfli bir döyüş yolu keçir. 1930-cu ildə Cəmşid Naxçıvanski Azərbaycan SSR-in Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilir.

1931-ci ildə İ.V.Stalinin tapşırığı ilə Cəmşid xan tam akademik təhsil alması üçün M.V.Frunze adına Moskva Hərbi Akademiyasına göndərilir. Akademiyanı müvəffəqiyyətlə bitirdikdən sonra 1934-cü ildən həmin akademiyada müəllim kimi saxlanılır. Əvvəlcə II kursun rəisi, daha sonra akademiyanın Ümumi taktika kafedrasının müdiri vəzifəsində çalışır. Cəmşid Naxçıvanski böyük sərkərdə olmaqla yanaşı, eyni zamanda gözəl pedaqoq və hərb işi üzrə ekspert-novator idi. Naxçıvanski zamanın ən nüfuzlu akademiyasında müdavimlərə rus və fransız dillərində mühazirə oxuyurdu. O, döyüş zamanı cinahların koordinasiya və yerdəyişməsi konsepsiyasını yenidən işləyib hazırlamışdı. Cəmşid xan öz layihəsində o dövr üçün yeni sayılan fərqli bir taktika, fərqli bir metod irəli sürdü. Generalın bütün incəliklərinə qədər işləyib-hazırladığı bu konsepsiyadan Sovet ordusu II Dünya müharibəsində ustalıqla istifadə etdi və yüksək nəticələr qazandı.

1935-ci ildə Cəmşid xana general-mayor ali hərbi rütbəsi verilməsinə baxmayaraq, Naxçıvanski düşmənləri olan şaumyanlar, mikoyanlar, beriyalar və digərləri tərəfindən daim izlənilərək təqiblərə məruz qalır. Buna görə də görkəmli Azərbaycan sərkərdəsi mürtəce qüvvələr tərəfindən üç dəfə həbs olunur. Bunun ikisində ölüm cəzasından son anda qurtulur, lakin sonuncu – üçüncü həbsi... Çox təəssüf ki, Azərbaycan xalqının düşmənləri xan nəvəsinin yüksək zəkasını, elmi potensialını həzm edə bilmirlər. Cəmşid Naxçıvanski də xalqımızın digər görkəmli şəxsiyyətləri kimi 30-cu illərin repressiyasına məruz qalaraq totalitarizmin qurbanına çevrilir. 20 may 1938-ci ildə generalın həbsi üçün 3191 nömrəli həbs orderi yazılır. Əslində, bu order sovet ölüm makinası tərəfindən Cəmşid xanın qətlinə verilmiş fərman idi. 26 avqust 1938-ci ildə Cəmşidin saxlandığı Lefertovo zindanında SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası saxta ittihamlarla səyyar məhkəmə qurur. Generala sifarişli ölüm hökmü çıxarılır və hökm məhkəmədən dərhal sonra icra olunur... Sərkərdə Moskvanın 26 kilometrliyində sonralar qardaşlıq qəbiristanlığına çevrilmiş Kommunarka adlı kütləvi qəbiristanlıqda dəfn olunur.

22 dekabr 1956-cı ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası rəsmi bəraət versə də, Cəmşid Naxçıvanskini faktiki olaraq 1969-cu ildə Azərbaycan SSR KP MK-ya Birinci Katib seçilən ümummilli liderimiz Heydər Əliyev xalqımıza yenidən qaytarır. Ulu öndər elə ilk günlərdən Azərbaycan SSR Elmlər Akademiyasının Partiya Tarixi İnstitutuna tapşırıq verir ki, haqsızlığa məruz qalaraq repressiya qurbanı olmuş Cəmşid Naxçıvanski haqqında obyektiv və dolğun araşdırmalar aparılsın. Bu siyasi dəstəkdən sonra müdrik rəhbərin tövsiyəsi ilə Naxçıvanski haqqında aparılan ilkin tədqiqat materialları mətbuat vasitəsilə ictimaiyyətə təqdim edilir. Dahi rəhbər 23 iyun 1971-ci ildə Azərbaycan KP MK-nın Büro iclasını çağırır və iclasa şəxsən özü rəhbərlik edir. Ulu öndər iclasda “SSRİ Silahlı Qüvvələrinin görkəmli nümayəndəsi Cəmşid Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsi” məsələsini müzakirəyə çıxarır. Dahi rəhbərin imzası ilə təsdiqlənən, Azərbaycan tarixinin ən həssas və ağrılı “yükünü” daşıyan 4 bəndlik Qərar, əslində, Cəmşid Naxçıvanskinin simasında bütün Naxçıvanskilərin üzünə doğan günəş idi. Gördüyü hər bir işi zərgər dəqiqliyi ilə hesablayan müdrik siyasətçi Qərarın preampula hissəsində “SSRİ Silahlı Qüvvələrinin görkəmli nümayəndəsi” sözləri altında Cəmşid xanı, Cəmşid xanın simasında bütün Naxçıvanskiləri – Kəngərliləri Azərbaycan ictimaiyyətinə təqdim edirdi.

23 iyun 1971-ci il tarixdən etibarən Cəmşid Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsinə başlanılıb. Vaxtında atılmış cəsarətli bir imza bütöv bir nəslin taleyini dəyişdi. Bu gün Azərbaycan Respublikasında Cəmşid Naxçıvanskini və sələflərini tanımayan və sevməyən yoxdur. Böyük fədakarlıqla və əzmkarlıqla yaradılan, generalın adını daşıyan hərbi liseyin məzunları isə Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü qoruyan fədailərdir.

Ümummilli liderin milli-siyasi məktəbinin məzunları bu gün onun yolunu uğurla davam etdirirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı “Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında” 2015-ci il 2 aprel tarixli Sərəncamın icrası ilə bağlı keçirilən silsilə tədbirlər Cəmşid Naxçıvanskini müasir Azərbaycan gəncliyinə yeni təqdimatı idi. Naxçıvanın tarixinə, mədəniyyətinə, görkəmli şəxsiyyətlərinə böyük qayğı və həssaslıqla yanaşan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun xüsusi qayğısı sayəsində onlarla tarix-mədəniyyət abidələri kimi, XX əsrin əvvəllərində Araz-Türk Respublikasının Naxçıvan şəhərindəki qərargahı, hazırda Cəmşid Naxçıvanskinin ev-muzeyi də təmir və bərpa olunmaqdadır. Həmin binanın XIX əsr tarix-mədəniyyət abidəsi, Cəfərqulu xanın malikanəsi kimi də əsaslı şəkildə bərpa olunaraq xalqa yenidən qaytarılması əsl vətənpərvərlik nümunəsidir. Bu, Naxçıvanın dövlətçilik tarixinə, bu tarixi yazan və qoruyan şəxsiyyətlərə Ali Məclis Sədri tərəfindən ən böyük hədiyyədir.

**Abasət NURİYEV**
***Cəmşid Naxçıvanskinin ev-muzeyinin direktoru***



## Qurban bayramı insanları birliyə, həmrəyliyə, şəfqət və xeyirxahlığa səsləyir

*Müqəddəs Qurban bayramı Uca Tanrıya məhəbbətin, Rəbbimizin öz bəndələrinə lütf və mərhəmətinin ifadəsi olmaqla əsrlərboyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına xidmət edib və etməkdədir.*

Lüğəti mənada "qurban" sözü "yaxınlaşmaq" deməkdir. Yəni qurban kəsən hər bir kəs bu əməli ilə Allaha yaxınlaşır. Allah dərgahında kəsilən qurbanların ruhi dəyərlərin paklanmasında, insanların xeyirxah əməllər ətrafında birləşməsində mühüm rol oynayır. Qurban İslam aləmində ən əziz bayramlardan biri, eyni zamanda müsəlmanların Həcc ziyarəti mərasiminin bir hissəsidir. Bütün müsəlman aləmində hər il Hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən, üç gün davam edir. İslam dinində bu ayin xüsusi mahiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur.

Dostluğun, qardaşlığın, fədakarlığın cəmiyyətdə inkişafı və gələcək nəsillərə təlqin edilməsi üçün gözəl fürsət kimi dəyərləndirilən Qurban bayramı hicrətin ikinci ilində fərz qılınıb. "Qurani-Kərim"in "Kövsər" surəsində deyilir: *"Rəbbin üçün namaz qıl və qurban kəs. De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi – Allah üçündür"*. *"Biz hər bir ümmət üçün bir qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər"*. Bundan əlavə, Peyğəmbərimiz (s.ə.s) buyurub: *"Bayram namazından sonra qurban kəsən ibadətini tamamlamış və müsəlmanların sünnəsinə (yoluna) əməl etmişdir"*.

Azərbaycan tarixən İslam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş edib. Digər müsəlman ölkələri kimi, respublikamızda da İslam dinindən irəli gələn vəzifələr böyük ehtiramla yerinə yetirilir. Hər il yüzlərlə azərbaycanlı zəvvarın Həcc ziyarətinə yola düşməsi və bu ziyarətin vacib əməllərindən sayılan qurban kəsilməsinə əməl etməsi xalqımızın öz dinimizə bağlılığının nümunəsidir.

Azərbaycanda Qurban bayramı hər il böyük təntənə ilə qeyd olunur. Xalqımızın ümummilli lideri Heydər Əliyev bu müqəddəs bayramı yüksək qiymətləndirərək deyirdi: ***"Bütün müsəlmanların böyük təntənə ilə qeyd etdikləri Qurban bayramı insanın ən çətin məqamlarında düzgün mövqe seçmək, ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini təcəssüm etdirir"***.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz fəaliyyətində milli-mənəvi, islami dəyərlərin qorunması və təbliğinə ciddi diqqət yetirməklə insanlar arasında həmrəyliyin və saflaşmanın bərpa olunmasında bu bayramın rolunu yüksək qiymətləndirir. Dövlət başçısı xalqımızı Qurban bayramı münasibətilə təbrikində deyib: ***"Azərbaycanda bütün dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il böyük təntənə və yüksək əhval-ruhiyyə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvaram ki, bütün xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Uca Yaradanın mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır"***.

Azərbaycanda rəsmi olaraq iki gün qeyd edilən bu dostluq, qardaşlıq bayramının özünəməxsus qurban kəsmək şərtləri vardır. Bu şərtlərə görə qurban kəsən şəxs müsəlman olmalıdır. Qurban ibadəti qurbanlıq heyvanın bayram günlərində qayda-qanunlara uyğun şəkildə qurban sahibinin özü tərəfindən kəsilməsi və ya başqasına kəsdirməsi ilə yerinə yetirilmiş olur. Qurban üzrlü səbəbdən bayram günü kəsilməzsə, bayramın ikinci, üçüncü günü də kəsilə bilər. Ancaq unutmayaq ki, bu ayini günün birinci yarısı, yəni gün dönməzdən əvvəl yerinə yetirmək lazımdır.

Qurban kəsmək maddi imkanı olan bütün müsəlmanlara vacibdir. Həmin müsəlman kəsdiyi qurbanın ətini imkansızlara paylamalıdır. Burada əsas məqsəd dindarlığa nail olmaqdır. Müqəddəs "Qurani-Kərim"də yazılıb: *"Kəsdiyiniz qurbanlardan Allaha nə ət, nə onun qanı çatmır, ancaq sizin dindarlığınız çatır"*.

Səfərdə olanların, həmçinin imkansız ailələrin qurban kəsməsi vacib deyil. Bu yalnız ona imkanı olan adamların boynunda haqdır. Qurban əti satılmaz və ya satın alınmaz. Qurban yalnız paylanmaq üçün kəsilər ki, bu paylamanın da şərtləri vardır. Belə ki, kəsilmiş qurban üç yerə bölünür. Həmin üç hissənin biri ehtiyacı olan qonşulara, bir hissəsi qohum-əqrəbaya paylanılır, digər bir hissəsi isə evdə saxlanılır. Quşlardan və ov heyvanlarından qurban kəsmək doğru deyil. Qurban kəsmək ibadəti həm də insanlara sərvətini ehtiyacı olanlarla paylaşmaq əxlaqını aşılayır.

Bu bayramın ən gözəl xüsusiyyətlərindən biri də odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir. Qurban bayramında istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin.

Bu bayramda hamı sevinməlidir: varlılar Allaha xoş gedən əməli icra etdikləri, imkansızları sevindirdiklərinə görə, imkansızlar isə dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmət və qayğıya görə.

*Bu bayram müsəlman dünyasında əsl təntənəyə çevrilir, insanlara birlik, həmrəylik, şəfqət və xeyirxahlıq duyğuları aşılayır. Dinimizin təlqin etdiyi ədalət prinsipləri də Qurban bayramında özünü göstərir. Bu bayram insanların mənən saflaşması, onların daha sıx birləşməsi üçün bir vasitədir. Bu birlik ovqatı bizim hamımız – cəmiyyətimiz və dövlətimiz üçün olduqca mühüm amildir.*

✍ **Muxtar MƏMMƏDOV**

## Naxçıvan cənnətməkandır



*Bərəkətli torpağı, saf suyu, təmiz havası, bol Günəşi və füsunkar təbiəti olan Naxçıvan bu qədim diyara üz tutan hər kəsi heyran edir. Xüsusən də son illərdə muxtar respublikada turizmin inkişafı sahəsində görülən işlərin nəticəsi olaraq buraya səfər edən turistlərin sayı ildən-ilə daha da artır. Naxçıvana səfər edən hər bir turist burada tarixilik və müasirliyin vəhdətinə valeh olur.*

Turistlər həm də informasiya təbliğatçılarıdır. Muxtar respublikaya üz tutan hər bir xarici ölkə vətəndaşı sosial şəbəkələr vasitəsilə Naxçıvanın gəzməli-görməli yerlərində çəkdikləri şəkilləri paylaşır, daha geniş auditoriyada müzakirələr aparır və gəzdikləri yerləri daha çox insanın tanımasına, maraq göstərməsinə səbəb olur. Digər tərəfdən, muxtar respublikaya gələn turistlər öz ölkələrinə qayıtdıqdan sonra ətraflarındakı insanlara Naxçıvan haqqında təəssüratlarını danışmaqla yurdumuzun gözəlliklərini təbliğ edirlər.

Naxçıvana səfər edən Türkiyə Cümhuriyyətinin vətəndaşı Bekir Şenyıldızın dediyinə görə, muxtar respublikamıza gəlməsinin əsas səbəbi məhz sosial şəbəkələrdə və televiziyalarda bu qədim diyar haqqında gördüyü məlumatlardır.

Qonağımızın burada olduğu günlər mənim məzuniyyət vaxtıma təsadüf etdiyindən ona bələdçilik etmək, gəzməli-görməli yerlərə birlikdə getmək imkanım oldu. Doğma yurd yerini onunla birlikdə bir daha kəşf etmək, gedəcəyimiz yerlər haqqında əvvəlcədən məlumat vermək məni daha çox sevindirirdi. Türkiyəli turistimizin muxtar respublika haqqında öyrəndiyi məlumatları daha da genişləndirmək istəyini nəzərə alaraq ilk olaraq muzeylərimizə üz tutduq. Daha sonra Duzdağ Fizioterapiya Mərkəzi, "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, "Əlincəqala" tarixi abidəsi və muzeyi, Nuh Peyğəmbərin məzarüstü türbəsi və digər yerlərdə olduq.

Türkiyəli qonağımızla Naxçıvan gəzintimiz bitdikdən sonra onun muxtar respublikamız haqqında təəssüratlarını öyrəndim. O, söhbətimiz zamanı dedi:

– Dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanın digər rayonlarında olmuşam. Əvvəllər bir neçə dəfə qardaş ölkəyə səfər etsəm də, Naxçıvana gəlmək şansım olmayıb.

Bekir Şenyıldız bunu bir az da məlumatsızlıqla əlaqələndirir:

– Bu ilin əvvəlində televiziyada qədim diyarınız haqqında çəkilmiş sənədli filmə baxdım və Nuh Peyğəmbərin yaşadığı torpağı görmək qərarına gəldim.

"Naxçıvan məni valeh etdi", – deyən müsahibim bildirdi ki, Azərbaycan çox gözəl ölkədir və mən deyərdim ki, Naxçıvan Azərbaycanın incisidir. Bura, həqiqətən də, dünyada insanların arzuladığı sakit, təmiz, gözəl yerlərdən biridir. Sakinləri mehriban, gülərüzdür. Muxtar respublikanın bölgələri də öz gözəlliyi ilə insanı heyran edir. Burada milli adət-ənənələr təkcə muzeylərdə yox, hər bir evdə yaşadılır. Mənim üçün bu diyardakı muzeylərə ekskursiyam da maraqlı oldu. Naxçıvan Dövlət Tarix və Ədəbiyyat muzeyləri, Açıq Səma Altında Muzey, bir sözlə, bütün mədəniyyət müəssisələri türklərin yaşadığı qədim yurd yeriniz haqqında məlumatlar əldə etdim. Mən ədəbiyyat müəllimi olduğum üçün Ədəbiyyat Muzeyi daha çox diqqətimi çəkdi. Bu torpaqda böyük şairlərin, yazıçıların, elm adamlarının yetişdiyini öyrəndim.

"Naxçıvan qadına ehtiramın vətənidir", – söyləyən Bekir Şenyıldız onu da dedi ki, ümumiyyətlə, türk xalqları həmişə qadına-anaya hörmətlə yanaşıblar. Mən gəzdiyim ölkələrdə qadınlara hörmət və ehtiramın ifadəsi olaraq inşa edilən bir çox abidələr görmüşəm, ancaq Naxçıvandakı Möminə xatın türbəsi hamısından fərqlənir. Buraya ilk gəlişimdə türbənin gözəlliyi məni valeh etdi. Bu abidə, sanki Naxçıvanın mirvarisidir. Abidənin tarixini öyrəndikdən sonra isə daha çox heyrətləndim.

Burada məni təəccübləndirən yerlərdən biri də Duzdağ mağarası oldu. Dünyada belə müalicəvi məkan, demək olar ki, yoxdur. Orada olarkən öyrəndim ki, dünyanın bir çox ölkələrindən Duzdağa müalicə məqsədilə insanlar axın-axın gəlir. Əminliklə deyə bilərik ki, Duzdağ insanlar üçün bir nemətdir.

Müsahibim dedi ki, qədim diyardakı Əshabi-Kəhf mağarası bütün İslam aləmi üçün önəmli bir ziyarətgahdır. O vurğuladı ki, dünyada bir neçə belə mağara var, eləcə də Türkiyənin Tarsus şəhəri yaxınlığında. Mən orada da bir neçə dəfə olmuşam. Ancaq Naxçıvan Muxtar Respublikasındakı "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksinə gəldikdə bu yerin, həqiqətən də, möcüzəvi aurasına qapıldım. Mağaranı bir az gəzdikdən sonra özümü sirli-sehrli bir aləmdə hiss etdim. Naxçıvan, həqiqətən də, möcüzəvi bir diyardır.

Son olaraq müsahibim bildirdi ki, yamyaşıl parkları, bağçaları, təmiz küçələri, rahat yolları, yaraşıqlı binaları, təmiz havası, gözəl təbiəti olan ecazkar Naxçıvana yenidən gəlmək, buranı təkrar görmək istəyirəm və hər kəsə öz səfərlərini mütləq bu qədim yurd yerindən salmalarını tövsiyə edəcəyəm. Çünki Naxçıvan dünyanın naxışı – cənnətməkandır...

✍ **Pərviz HACILI**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Təsərrüfat əkinlərinin korlanması hansı inzibati məsuliyyət yaradır?***

**Cavab:** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən əkinlərin və ya bitkilərin üstü ilə avtomobil, traktor, kombayn və ya digər nəqliyyat vasitələrini, yaxud at arabalarını sürməklə və ya digər üsullarla onların korlanması inzibati məsuliyyət yaradır və əlli manatdan yüz manatadək məbləğdə cərimə müəyyən edilir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Şəhər birinciliyinə yekun vurulub



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə yeniyetmə və gənclər arasında kadetlər arası kikboksinq üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən açıq birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Şərur, Babək, Culfa, Kəngərli rayonlarının, həmçinin "Turan" və "Odlar yurdu" İdman klublarının idmançıları da iştirak ediblər.

3 yaş qrupunda 22 çəki dərəcəsi üzrə 100-dən çox idmançının mübarizə apardığı yarışın yekununa əsasən qızlar arasında Röya Abdullayeva (32 kiloqram, "Turan"), oğlanlar arasında isə 7-8 yaş qrupunda Asim Kərimli (18 kiloqram, "Turan"), Eldar Novruzov (20 kiloqram, "Turan"), Cəsur Mahmudov (22 kiloqram, Şərur), Uğur Məmmədli (24 kiloqram, Şərur), Turqay Cəfərov (26 kiloqram, Culfa), Qəhrəman Abdullayev (28 kiloqram, "Turan") və Əbülfəz Cəfərov (32 kiloqram, "Turan") qalib adını qazanıblar.

9-11 yaş qrupunda Əli Qasımov (24 kiloqram, "Turan"), Səid Nəsirov (26 kiloqram, "Odlar yurdu" İK), Oğuz Məmmədli (28 kiloqram, "Turan"), Səid Abbaslı (30 kiloqram, "Turan"), Məhəmməd Məmmədli (32 kiloqram, Kəngərli), Uğur Əliyev (36 kiloqram, Naxçıvan), Ramədin Abdullayev (39 kiloqram, Kəngərli) və Əbülfəz Zeynallı (39+ kiloqram, Şərur) hamıdan güclü olublar.

12-13 yaş qrupunda isə Sinan Kazımov (32 kiloqram, Şərur), Sadiq Hacıyev (35 kiloqram, Naxçıvan), Hüseyn Həsənov (38 kiloqram, Şərur), Mirinam Seyidov (42 kiloqram, Naxçıvan), Ramal Qurbanov (47 kiloqram, Şərur) və Zeynalabdin Musayev (52 kiloqram, Şərur) bütün rəqiblərini üstələməyi bacarıblar.

Sonda hər çəki dərəcəsində ilk üç yeri tutan idmançılara təşkilatçılar tərəfindən diplom və medallar təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.**
**Telefonlar: Məsul katib: 545-62-47**
**Şöbələr: 545-81-44, 545-51-18**
**Müxbirlər: 545-75-21, Faks: 544-52-52**
**E-mail: serqqapisi@nakhchivan.az**

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

**Nömrəyə məsul: Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1495. Sifariş № 540**